Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Vətəndaş cəmiyyəti quruculuğu Heydər Əliyevdən başladı...

**Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı əsas hədəflərdən biridir. Əlbəttə, vətəndaş cəmiyyəti institutu bizim ölkədə elə də yaşlı deyil, amma gənc olmasına baxmayaraq çox çətin, lakin şərəfli yol qət edib. Bu gün cəmiyyətimizdə vətəndaş cəmiyyəti öz aktivliyi ilə seçilir.**

Heç şübhəsiz ki, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunda, bu institutun formalaşmasında ulu öndər Heydər Əliyevin rolu çox böyük olub. Məhz onun müəllifliyi, təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Ekspertlər qeyd edir ki, həmin dövrdən də Azərbaycan dövləti və cəmiyyətinin idarə olunması beynəlxalq, bəşəri, sivil prinsiplərə istiqamətləndirildi, ölkəmiz hüquqi-demokratik dövlət quruculuğu yolunda inamla addımlamağa başladı. Ekspertlərin fikrincə, Konstitusiyanın qəbul edilməsi həm də ictimai birliklərin, qeyri-hökumət təşkilatlarının yaranmasına, formalaşmasına şərait yaratdı. Mübağiləsiz demək olar ki, ölkədə vətəndaş cəmiyyətinin təşəkkülündə və ölkənin əsas hərəkətverici qüvvələrindən birinə çevirilməsində ulu öndərin əməyi danılmazdır. Bir sözlə, vətəndaş cəmiyyəti quruculuğunda Heydər Əliyevin rolu misilsiz olub.

**QHT-lərin yaranmasına açılan yollar...**

Heydər Əliyevin rəhbərliyi dövründə bu sahədə görülən işlərə diqqət yetirdikdə heyrətlənməyə bilmirsən. Bu dövrdə çox böyük işlər görülüb, təşkilatlar təsis edilib.

Qeyd edilənə görə, 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təsis olunub, bu da özlüyündə bu sahəyə töhfə verib. QHT-lərlə İş üzrə Resurs və Təlim Mərkəzinin təşkilati və texniki dəstəyi ilə 11 iyul 1999-cu ildə Milli QHT Forumu 95 təşkilat tərəfindən təsis edilib. Məlumatlara görə, 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinə QHT-lərin münasibəti mövzusunda keçirilən "dəyirmi masa" öz bəhrəsini verib və bu tədbirdə QHT-lərin Beynəlxalq Koalisiyası yaranıb.

Qeyd edilənə görə, Milli QHT Forumu fəaliyyətə başladığı gündən müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq edərək ictimai təşkilatların fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, onların inkişafı üçün əlverişli mühitin yaradılması istiqamətində ardıcıl işlər aparmağa başlayıb. Həmçinin forum QHT sektorunun fəaliyyətini tənzimləyən qanun layihələrinin hazırlanmasında yaxından iştirak etdi. Bunları həyata keçirmək üçün isə ümummilli lider öz fəaliyyəti, yürütdüyü daxili və xarici siyasətlə Milli QHT Forumuna strategiyasını müəyyənləşdirməkdə sanballı yol göstərirdi. Həmin strategiyanın həyata keçirilməsinin nəticəsi idi ki, 1997-ci ildə BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan hökuməti arasında "Azərbaycan qeyri-hökumət təşkilatlarının institusional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək" adlı birgə layihə haqqında saziş imzalandı. Layihənin icrası üçün 1998-ci ildə QHT-lərin Resurs və Təlim Mərkəzinin yaradılması QHT sektorunun sonrakı inkişafında ciddi faktora çevrildi. Ardınca 1998-ci ildə "Qrant haqqında" qanunun qəbul edilməsi qeyri-hökumət təşkilatlarının əsas maliyyə mənbəyinin qanun çərçivəsində tənzimlənməsi baxımından müstəsna əhəmiyyətə malik oldu. Ən nəhayət, 2000-ci ildə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" yeni qanun qəbul edildi.

Bu statistika mediada yer alıb.

**"Vətəndaş cəmiyyətinin yaranmasında Heydər Əliyevin önəmli rolu vardı"**

"Müasir İnkişaf" Birliyinin sədri Mübariz Göyüşlü bizimlə söhbətində qeyd etdi ki, vətəndaş cəmiyyəti institunun formalaşmasında Heydər Əliyevin rolu çox böyükdür. "Heydər Əliyev öz dövründən sonrakı zamanlar üçün böyük siyasətçi, böyük dövlət xadimidir. Müstəqillik dövrünün, yeni dövrün şərtlərinə uyğun olaraq dövlət quruculuğu prosesini yüksək peşəkarlıqla həyata keçirirdi. Bu dövrdə keçmiş SSRİ ölkələrində olduğu kimi Azərbaycanda da qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti anlayışı meydana gəldi və onların yaranması zərurətə çevrildi. Əlbəttə, bunların hamısının gerçəkləşdirilməsinə imkanlar açan konstitusiya da qəbul olundu. Azərbayacanda vətəndaş cəmiyyəti institutu quruculuğu həyata keçirildi. Ölkədə vətəndaş cəmiyyətinin yaranmasında Heydər Əliyevin önəmli rolu vardı. Bu prosesin getdiyi dövrlər Azərbaycanın çox çətin vaxtlarına təsadüf edirdi. Dövlət quruculuğu məsələləri çox ağır mərhələlərdən keçirdi. Belə bir məqamda yeni bir institut, yeni bir proses olan QHT anlayışını cəmiyyətə təqdim edə bilmək, onlara dəstək göstərmək, onların dövlət və dövlətçiliyə xidmətini təmin etmək Heydər Əliyev siyasətinin əsas xəttlərindən biri idi. Əlbəttə, bu xətt çox böyük uğurla davam etdi, bu gün biz onun bəhrəsini görürük".

M.Göyüşlü deyir ki, o dövrdə QHT-lər, vətəndaş cəmiyyəti institutu yerlərdə bir qədər düzgün anlaşılmırdı, hətta icra hakimiyyətlərində belə onlara o qədər də isti münasibət yox idi. Lakin Heydər Əliyevin rəhbərliyi ilə ölkə qanunvericiliyinin təkminləşməsi, nəticədə də QHT-lərin formalaşması və dövlətin əsas dayaqlarından birinə çevirilməsi prosesi baş verdi. "Vətəndaş cəmiyyəti institutunun əsası Heydər Əliyevin rəhbərliyi dövründə qoyuldu və onun inkişafı üçün qanunvericilik bazası formalaşdırıldı, QHT-lərin maliyyələşdirilməsi mexanizmləri işlənildi, yerli donor təşkilatların yaradılması məqsədilə ilkin baza fəaliyyətlərinin qurulmağa başladı. Bu işlərin hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Xatırlayıram, o Milli Qeyri-Hökumət Təşkilatları Forumunun qurulduğu dövrdən QHT-lərə dəstək üçün samballı bir qurumun yaranması ilə bağlı fikirlər hər zaman gündəmdə olurdu"- deyə M.Göyüşlü qeyd etdi.

**Heydər Əliyev vətəndaş cəmiyyətinin əsasını qoydu**

Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni də Heydər Əliyevin bu sahədə oynadığı roldan danışdı: "Müasir Azərbaycanın qurucusu, xalqımızın görkəmli oğlu, dünyaşöhrətli siyasətçi Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra təbii ki, qarşısında mühüm vəzifələr vardı. Bu müasir Azərbaycan dövlətinin quruculuğu idi. Orada da əlbəttə, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması çox vacib istiqamətlərdən biri idi. Bundan irəli gələrək Heydər Əliyev fəal şəkildə o istiqamətdə addımlar atmağa başladı. Ölüm hökmünün, senzuranın ləğv olunmasından tutmuş konstitutsiyanın qəbul olunmasına qədər çox böyük işlər gördü. 2000-ci ildə QHT-lər, ictimai birliklər və fondlar haqqında MDB məkanında ilk qanunun qəbul olunması, ondan əvvəl 1999-cu ildə Milli QHT Forumunun yaranması və s məsələlərlə ulu öndər bilavasitə Azərbaycanda vətəndaş cəmiyyətinin təməlinin qoyulmasında çox böyük bir rol oynadı. Eyni zamanda da ölkə prezidenti İlham Əliyev də o siyasəti çox uğurla davam etdi və 2003-cü ildə prezident seçiləndən sonra 2007-ci ildə qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyası qəbul oldu. 2008-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurası yarandı. Bu istiqamətdə bütün proseslər beynəlxalq standartlara, milli maraqlara uyğun olaraq Azərbaycan dövlətçiliyinin əsas istiqaməti kimi hər zaman davam etdi. Təbii ki, ulu öndərin ziyalılarla, vətəndaş cəmiyyəti üzvləri, gənclərlə, media nümayəndələri ilə dəfələrlə görüşlər keçirməsi o illərdə həm gənclik hərəkatının inkişafına, həm milli medianın inkişafına verilən dəstək elə vətəndaş cəmiyyətinin inkişafına verilən dəstək idi. Çünki əgər bizim azad sözümüz olmasaydı, azad mühitimiz olmasaydı biz cəmiyyət olaraq inkişaf edə bilməzdik. Ona görə görə də vətəndaş cəmiyyətinin inkişafına ulu öndər Heydər Əliyevin tarixi xidmətləri çox yüksəkdir. Vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatı forumu olaraq biz hər il ulu öndərlə bağlı tədbirlər keçirəndə bunu qeyd edirik ki, hətta Sovet dövründə belə o azad cəmiyyətin yaranmasına diqqət yetirirdi. "Mozalan" telejurnalından tutmuş "İstintaq" filminə qədər bu amala xidmət edirdi. Yəni Heydər Əliyev o zaman yazılan və yazılmayan qanunlarla cəmiyyətdə mövcud olan bütün neqativ hallara qarşı mübarizə aparırdı".

O dövrdə "Mozalan"ın özünün çox böyük ictimai nəzarət olduğunu deyən R.Zeyni qeyd edir ki, ulu öndər bu tip sənət nümunələrinin ortaya çıxmasına böyük imkanlar açırdı.



*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**